**Dövlət İmtahan Mərkəzi 2020-2021-ci tədris ili üçün doktoranturaya və dissertanturaya xarici dil üzrə qəbul imtahanında iştirak etmək üçün qeydiyyat**

**Təlimat**

Elektron ərizə ilə iş üçün namizəd **ekabinet.dim.gov.az** internet səhifəsində **"Şəxsi kabinet"** yaratmalı və həmin kabinetin pul hesabına tələb olunan pul vəsaitini (xarici dil imtahanından azad olunanlar istisna olmaqla) əlavə etməlidir. Namizəd yalnız **"Şəxsi kabinet"**inin istifadəçi adı və parolundan istifadə etməklə ərizə doldurub onu təsdiqləyə bilər.

Namizəd **eservices.dim.gov.az/erizedok/erize** internet səhifəsinə daxil olur, login bölməsində "**Şəxsi kabinet**"inin istifadəçi adını və parolu müvafiq sahələrə daxil edib "**Daxil ol**" düyməsini basır.

Elektron ərizə forması şəxsi məlumatlar, təhsil haqqında məlumatlar və imtahan məlumatları təsvir edilən bölmələrdən ibarətdir.

**"Şəxsi məlumatlar"** bölməsində namizəd heç bir dəyişiklik edə bilməz (bu məlumatları yalnız "Şəxsi kabinet"də dəyişmək olar). Bu bölmədə yalnız elektron poçt ünvanını qeyd edilməlidir.

**"Təhsil haqqında məlumatlar"** bölməsində namizəd magistratura səviyyəsində, yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis) təhsili haqqında məlumatları müvafiq bölmələrdə qeyd etməlidir. Magistratura (tibbi təhsildə həkim-mütəxəssis) təhsilini Azərbaycan Respublikasında bitirən namizədlər haqqında məlumatlar Tələbə-Məzun Dövlət İnformasiya Sistemində (TMMS) olmalıdır. Bu bölmədəki "TMMS" düyməsini sıxmaqla həmin məlumatları görmək olar. Əgər namizədin təhsili haqqında məlumatlar TMMS-də aşkar edilməsə, namizəd müvafiq bölmədə diplomun surətini yükləməlidir. Yalnız bundan sonra namizəd ərizəsini təsdiq edə bilər.

**Diqqət! Etibarsız sənəd sistemə yüklənməsi aşkar edildikdə ərizənin təsdiqi ləğv edilir.**

**"İmtahan məlumatları"** bölməsində namizədin imtahan verəcəyi bölmə, imtahan verəcəyi xarici dil və xarici dil sertifikatı haqqında məlumatlar əks edilir. Bölmə və xarici dil haqqında məlumatlar ali təhsil müssisələri, elmi müəssisələr və təşkilatlar tərəfindən DİM-ə təqdim edilən siyahılara uyğun qeyd edilir. Əgər bölmə və xarici dil məlumatlarında uyğunsuzluq varsa, doktoranturasına sənəd verdiyiniz təşkilata müraciət etməlisiniz. Əgər namizədin imtahan verəcəyi xarici dil üzrə qüvvədə olan (tələblərə uyğun) sertifikatı varsa, onun haqqında məlumatı xarici dil sertifikatı sahəsində qeyd etməlidir. Xarici dil sertifikatı DİM tərəfindən yoxlanıldıqdan sonra namizəd ərizəsini təsdiq edə bilər.

**Diqqət! Xarici dil üzrə qüvvədə olan və CEFR-in B2 və ya daha yüksək səviyyəsinə müvafiq beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, TestDaF, DELF, DALF) malik olanlar DİM-in internet saytında şəxsi kabinet yaratdıqdan sonra şəxsiyyət vəsiqələrinin və sertifikatlarının əslini və surətini 2020-ci il oktyabr ayının 13-dən 15-dək olan müddət ərzində hər gün saat 10-dan 17-dək (saat 13-dən 14-dək nahar fasiləsidir) DİM-in Bakı şəhəri, Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında (Asiya Universitetinin binasında) yerləşən ofisində yaradılan Sənəd qəbulu komissiyasına təqdim etməlidirlər. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi AMEA və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir. Təqdim edilmiş sertifikatların həqiqiliyi və qüvvədə olması yoxlanıldıqdan sonra onların sahibləri xarici dil üzrə qəbul imtahanından azad olunurlar.**

Magistratura (tibbi təhsildə həkim-mütəxəssis) təhsilini Azərbaycan Respublikasında bitirən namizədlər ərizələrini **özləri** təsdiq edirlər.

**Diqqət! İmtahana yalnız ərizəsi təsdiq edilən namizədlər buraxılacaqlar.**